# Möhkəm ailə— xoşbəxtliyin açarı

***Bəşəriyyətin diqqətinin ailə problemlərinin həllinə yönəldilməsi, ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin ailə həyatına hazırlanması, milli azlıqları təmsil edən ailələrin adət-ənənələrinin nümayişi, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin, nümunəvi çoxuşaqlı ailələrin, sağlamlıq imkanları məhdud olan insanların cəmiyyətə inteqrasiyasının təbliği məqsədi ilə hər il may ayının 15-i Beynəlxalq Ailə Günü kimi qeyd olunur.***

Bu əlamətdar gün dünyada yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltməyə xidmət



edir. Müstəqil Azərbaycanda dövlət ailə siyasətinin əsas prinsiplərinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər milli mənəvi dəyərlərin qorunmasının vacibliyini vurğulayaraq demişdir: “Azərbaycan xalqının milli ənənələrindən biri də ondan ibarətdir ki, uşağa diqqət, qayğı hər bir ailənin, hər bir insanın əsas vəzifəsi, mənəviyyatımızın əsas hissəsi olubdur”.

Ulu öndər Heydər Əliyevin ailə siyasəti Azərbaycanda bu gün də məqsədyönlü surətdə həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva milli mənəvi dəyərlərin qorunmasına böyük diqqət və qayğı göstərirlər.

Dövlət başçımız İlham Əliyev müasir Azərbaycanın həyatında ailə dəyərlərinin önəmini yüksək qiymətləndirərək demişdir: “Ölkəmizin inkişafı, müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün və milli dəyərlərin tam şəkildə bərqərar edilməsi üçün ailə dəyərləri daim yüksək olmalıdır”.

Bu gün ölkəmizdə ailələrin möhkəm təməl üzərində qurulması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Ölkəmizdə dövlət ailə siyasəti ilə bağlı qəbul edilən proqram və layihələrdə milli dəyərlərə əsaslanan ailə modelinin inkişafı, təbliği və sosial müdafiəsi öz təsdiqini tapmaqdadır.

Beynəlxalq Ailə Günü BMT-nin Baş Assambleyasının qətnaməsinə müvafiq olaraq 1994-cü ildən qeyd olunur. Azərbaycan 2008-ci ildən bu ənənəyə qoşulub. Ailə dəyərlərinin qorunub saxlanılaraq gələcək nəsillərə ötürülməsi, gənclərin yaşlılara hörmət ruhunda tərbiyə olunması, ailədə sülh və dözümlülük mədəniyyətinin, sağlam həyat tərzinin formalaşdırılması dövlət siyasətinin prioritetlərindəndir.

**“Qəbələ”**

# Maarifləndirici seminar

***Bu günlərdə 10 saylı Ərazi Vergilər İdarəsində regionun vergi ödəyiciləri üçün maarifləndirici seminar təşkil olunmuşdur.***

***Tədbiri açan vergilər idarəsinin direktoru Cavid Kəngərli vergi uçotunun aparılmasında şəffaflığın təmin olunması, vergi məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi, elektron hesabatların təqdim edilməsi, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə məcəllədə nəzərdə tutulmuş qaydada elektron qaimə-fakturaların verilməsi və s. haqqında seminar iştirakçılarını geniş məlumatlandırmışdır.***




Seminarda 10 saylı Ərazi Vergilər İdarəsinin bölmə rəhbəri İntiqam Hidayətzadə «Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 16 dekabr 2016-cı il tarixli 454 VQD nömrəli Qanununun tətbiqi: «Nağdsız hesablaşmalar haqqında», Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2017-ci il tarixli 1341 nömrəli Fərmanı ilə təsdiq edilmiş «İctimai iaşə fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlər və xərclərin uçotunun aparılması», «Pərakəndə ticarət fəaliyyəti sahəsində vergitutma məqsədləri üçün gəlirlərin və xərclərin uçotunun aparılması» Qaydalarının tətbiqi, Nazirlər Kabinetinin 14 mart 2017-ci il tarixli 89 nömrəli Qərarı ilə «Elektron qaimə-fakturanın forması», «Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi» Qaydaları, sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi və s. haqqında məlumat vermişdir.



Mövzu ətrafında çıxışlar olmuşdur.

Yekunda vergi ödəyicilərinin çoxsaylı sualları cavablandırılmışdır.

**«Qəbələ».**

# 3,2 faiz artım olub

***2017-ci ilin yanvar-aprel ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 1087,0 milyon manat təşkil edib.***

***Dövlət Statistika Komitəsinin məlumatına görə, onun 1036,1 milyon manatı heyvandarlıq, 50,9 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.***



***Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 3,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,6 faiz, bitkiçilik məhsulları üzrə isə 15,8 faiz artıb.***

# Ənənəvi ailələr dövlətçiliyimizin əsasıdır

***Hazırda ölkəmizdə ailə münasibətlərini tənzimləyən qanunvericilik bazası və dövlət orqanında qeydiyyatdan keçmiş nikahın hüquqi statusu var. Azərbaycan Respublikası dünyəvi dövlət olduğundan qanunvericiliyimiz yalnız dövlət orqanları tərəfindən rəsmi qeydiyyata alınmış nikahı tanıyır. Amma o da faktdır ki, cəmiyyətdə vətəndaş nikahı ilə yaşayan çoxlu sayda insanlar var və bu tendensiyanın getdikcə artması müşahidə olunur. Daha doğrusu digər ölkələrdə olduğu kimi azərbaycanlılar arasında da qeyri-ənənəvi ailə institutlarına meyllərin artması prosesi baş verir. İndi heç kim ölkəmizdə vətəndaş nikahı, dini kəbinlə yaşama, ikiarvadlılıq, nikahdankənar uşaq doğumu hallarının mövcudluğunu inkar edə bilməz. Cəmiyyətimiz bunu qəbul eləməsə də, belə qeyri-ənənəvi ailələrin olmasına dair kifayət qədər faktlar var və bu tərzlə yaşayanların bir çoxu onu açıqlamaqdan belə çəkinmirlər. Gənclər arasında isə vətəndaş nikahına pozitiv münasibət göstərənlərin sayı kifayət qədərdir.***

Rəhbərlik etdiyim quruma bir müddət birlikdə yaşamış, sonradan hər hansı problem-



lə bağlı ayrılan qadınlar tərəfindən kifayət qədər müraciətlər daxil olur. Bu cür ailələrdə dünyaya gələn uşaqlara sənəd verilməsində və aliment alınmasında problemlər yaranır. Qüvvədə olan qanunvericiliyə görə, rəsmi nikahdan doğulan uşaqlarla vətəndaş nikahından doğulan uşaqların statusu eyni olsa da, uşaqların hüquqlarının pozulmaması, aliment almaları üçün qanunun müddəalarına ciddi əməl edilməsinin, yeni evlənənlərin nikahının dövlət qeydiyyatına alınmasının tərəfdarıyıq. Doğrudur, BMT-nin “Nikahdan kənar doğulan uşaqlar haqqında” konvensiyası var. Azərbaycan da bu konvensiyaya qoşulub. Ailə Məcəlləsində də nikahdan kənar doğulan uşaqların hüquqlarının nikahdan doğulan uşaqlarla eyni olduğu qeyd edilib. Lakin vətəndaş nikahının tanınması ilə bağlı irəli sürülən təklifdə vətəndaş nikahının rəsmi nikah kimi qeyd edilməsi və hansı formada qeydiyyata alınması qeyri-müəyyəndir.

Cəmiyyətdə vətəndaş nikahında olan şəxslər arasında da son zamanlar müşahidə edilən məsələlərdən biri odur ki, atalar çox hallarda atalıq faktorunu təsdiqləməkdən boyun qaçırırlar. Bu da qadının uşağa sənəd almasına mane olur. Nəticədə isə onlar uşağın atasının adını yazdıra bilmədiklərinə görə yeni doğulmuş körpələrə uzun müddət sənəd ala bilmirlər və uşaqlar 7, 8, 10 yaşına qədər sənədsiz qalır. Uşaq sənədi olmadığına görə məktəbə, bağçaya gedə, tibb müəssisəsində kifayət qədər xidmət ala bilmir.

Qəbələ Rayon Qeydiyyat İdarəsi yaşayış məntəqələrində də vətəndaş nikahında olan cütlüklər arasında maarifləndirmə işlərini genişləndirməklə, erkən və qeydiyyatsız nikahların fəsadlarını izah edir, mümkün qədər onların nikahlarını dövlət qeydiyyatına alır, münasibətlərini rəsmiləşdirir.

Bu günlərdə artıq 15 il vətəndaş nikahı ilə yaşayan və dörd uşağı olan Qəbələ şəhər sakini Cəlilov Sənan Əli oğlu ilə Cəlilova Nuranə Səməndər qızının, iki il vətəndaş nikahı ilə yaşayan və bir uşağı olan Qəbələ şəhər sakini Əhmədov Rəhman Əjdər oğlu ilə İlyaslı Şahnaz Xanlar qızının nikahları dövlət qeydiyyatına alınmış, digər üç ailə isə nikahın qeydiyyata alınması üçün tibbi müayinəyə cəlb olunmuşdur.

Gəlin, ailə münasibətlərinin qurulmasında və yaranmasında Azərbaycan vətəndaşı kimi öz məsuliyyət hissimizi dərindən dərk edək, bu izdivacdan doğulan uşaqların gələcəyini düşünərək hərəkət edək.

**✍ Zinyət BAĞIROVA,**
**rayon qeydiyyat idarəsinin müdiri.**